15 may 2016-cı il RESPUBLİKA

# Bakı şəhər heyvanat parkı



Bakı Zooparkı 2 Yanvar 1942-ci ildə kiçik bir canlı guşə əsasında yaradılmışdır. Bakı şəhərində keçən əsrin əvvəllərindən başlayaraq parkın yaradılması üçün müxtəlif cəhdlər göstərilmişdir, kiçik kolleksiyaları ilə fərqlənən özəl zooloji sərgilər (zoosirklər və s.) fəaliyyət göstərmişdir. Həmçinin 1928-ci ildə Bakı şəhərinin keçmiş Lunaçarski, indiki Nizami parkında belə bir guşə fəaliyyət göstərmişdir. Bununla əlaqədar 1942-ci il zooparkın yaradılması kimi tarixə düşmüşdür.

80-ci illərə qədər zoopark Bayıl qəsəbəsində 1 ha ərazidə fəaliyyət göstərirdi. Zooparkın indiki əraziyə köçürülməsinin əsas səbəbi isə köhnə yerdə torpağın sürüşmə təhlükəsi ehtimalı idi. 1982-ci ildə daha 2,25 ha ərazi istifadəyə verildi. Gələcək inkişafı təmin etmək məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən 2001-ci ildə ərazi 2 ha artırılmış və hazırda 4,25 ha təşkil edir.

Direktor Azər Hüseynov söhbət edərkən bildirdi ki, 1995-ci ildə Bakı Zooloji parkında 60 növ və 200 baş heyvan nümayiş etdirilirdi. Ötən illər ərzində burada bir çox yeniliklər olmuşdur. Bu illər ərzində cırtdan marallar (muntcaq), Kuba zebusu, Xallı maral, Alpak, flaminqolar, qırqovulların həyat tərzinə uyğun volyerlər, balıqlara akvarium, sürünənlərə terrarium, quşların yetişdirilməsi məqsədilə tinglik, yeni doğulan heyvanları saxlamaq üçün volyerlər hazırlanıb istifadəyə verilmişdir. Bunlardan əlavə, heyvanların sağlamlığı ilə məşğul olan müalicəxana, yemlərin saxlanılması üçün anbarlar, müasir tələbata uyğun soyuducu kameralar yaradılmışdır. Son



illərdə akvarium balıqları və bitkilərdən ibarət yeni ekspozisiya–“Akvarium”un açılışı olmuşdur. Burada tropik ölkələrdə yaşayan 30 irihəcmli müxtəlif növ balıqlar və akvarium bitkiləri nümayiş etdirilir. Azərbaycan Respublikasının qanununa əsasən Bakı şəhər Heyvanat parkı “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri” siyahısına daxil edilmişdir.



Bakı Zooloji parkı 1995-ci ildən “Avrasiya Regional Zooparklar” və Akvariumlar Assosiasiyası”nın üzvüdür. Bu quruma 42 zooloji park, Rusiyanın, Çexiyanın, Ukraynanın və başqa ölkələrin zooparkları daxildir. Bakı Heyvanat parkı bu zooparklarla sıx əməkdaşlıq edir.

Azər müəllim onu da qeyd etdi ki, hazırda Bakı heyvanat parkında 150 növ və 1150 başdan çox heyvan nümayiş olunur. Bakı Heyvanat parkında Amur pələngi, Afrika aslanları, bəbir, yaquar, qonur ayılar, xallı marallar, Qafqaz maralları, yallı qoyun, safsar, canavar, tülkü, müxtəlif növ meymunlar və digər məməli heyvanlar saxlanılır. Müxtəlif növ su quşları (qızıl qaz, qutan, ördək və qu növləri), yırtıcı quşlar (qarasaqqal, berkut, ağbaş kərkəs, qara kərkəs, məzar qartalı, ağquyruq dəniz qartalı, yapalaq), ekzotik quşlar (ara, kakadu, jako, rozella), qırqovullar, tovuz quşları, sultan toyuqları nümayiş olunur. Sürünən heyvanlardan anakonda, torlu piton, Bredli piton, Burma piton, bağailanı, imperator udavı kimi ilanlar, Nil timsahı zooparkın növ kolleksiyasına daxildir. 2015-ci il ərzində 2016-cı ilin əvvəlində canavar, Qafqaz nəcib maralı, Avstriya keçiləri, Kamerun keçiləri, Hindistan tirəndazı, kenquru, Kuba zebusu, Pavian Qamadril meymunundan bala alınmışdır. Eyni zamanda əhali tərəfindən yaralı halda tapılmış heyvanlar Bakı şəhər Heyvanat parkına təhvil verilir və onlar burada müalicə olunaraq ya Heyvanat parkımızda saxlanılır və ya təbiətə buraxılır.

Ötən il Bakı şəhər Heyvanat parkında I Avropa Oyunları ilə əlaqədar təmir və abadlıq işləri aparılmışdır. Ərazidə ağaclar ağardılmış, hovuzlar təmir və izolyasiya olunmuş, qəfəslərdə kanalizasiya sistemləri yenilənmiş, bütün qəfəslər rənglənmiş, yırtıcı heyvanların qəfəslərinin döşəməsinə yeni beton örtüyü çəkilmiş, volyerlər arasında arakəsmələr bərpa olunmuş, bir neçə volyerlərin qapı və divarlarının bərpası işləri həyata keçirilmiş, heyvanlar haqqında məlumatverici lövhələr dəyişdirilmiş və yeniləri ilə əvəz olunmuşdur. Həmçinin artezian quyusu qazılmış və bu qəfəslərin təmizlənməsi işini daha da yüngülləşdirmişdir. Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə heyvanat parkında saxlanılan Amur pələnginin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə qəfəs inşa olunmuşdur. Amur pələnginin yeni qəfəsinin sahəsi əvvəlki qəfəsinə nisbətən 5 dəfə böyüdülmüşdür. Eyni zamanda yeni qəfəs təbii yaşayış arealına daha yaxındır. Burada heyvanın istidən və soyuqdan qorunması üçün əlavə tikili də mövcuddur. Həmçinin qəfəsdə əvvəlkinə nisbətən daha böyük hovuz tikilmişdir. Bundan əlavə, oxatan kirpilər üçün yeni qəfəs tikilib istifadəyə verilmişdir. Uşaqların ev heyvanları ilə ünsiyyətdə olması üçün kiçik guşə hazırlanmışdır. 2015-ci ildə Bakı şəhər Heyvanat parkına adi iquana hədiyyə olunmuşdur. Həmin iquana üçün parkda standartlara uyğun yay və qış volyerləri tikilmişdir.

2017-ci ildə Bakı şəhər Heyvanat parkının yaranmasından 75 ili tamam olur. Bakı şəhər Heyvanat parkının yubileyinin təntənəli keçirilməsi nəzərdə tutulmuşdur.

**Zabit CAVADOV,**
**“Respublika”.**